AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ AVROPA İTTİFAQI: ƏMƏKDAŞLIĞIN MÖVCUD VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5901.01 – Beynəlxalq münasibətlər |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Aygün Mehman qızı Əliyeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Slavyan Universitetinin "Diplomatiya və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

Rəsmi opponentlər: Siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Sənan Səməndər oğlu Həsənov**

Siyasi elmlər üzrə fəlsəfə doktoru
**Rəşad Rəhim oğlu Məhərrəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:

siyasi elmlər doktoru, professor
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri:

siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətlərindən birinə çevrilməkdə olan Azərbaycan Resublikasının xarici siyasi kursunun, onun konseptual əsaslarının, əsas prioritetlərdən biri kimi Avropa İttifaqı (Aİ) ilə əməkdaşlığının mövcud vəziyyəti və perspektivlərinin öyrənilməsi mövzunun aktuallığını şərtləndirir. İlk növbədə ona görə ki, Aİ vətəndaş cəmiyyətinin qurulması, demokratiyanın inkişafı, insanların hüquq və azadlıqlarının qorunması, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi yolunda böyük bir inkişaf yolu keçmişdir. Bu gün Aİ-nin qazandığı bu dərin təcrübə Azərbaycan Respublikasının da milli maraqları nəzərə alınmaqla yeritdiyi siyasətin əsas istiqamətlərini təşkil edir. Aİ üçün Azərbaycan Respublikası isə əsasən strateji mövqeyinə, tranzit ölkə kimi əhəmiyyətinə, xüsusilə də Avropanın enerji təchizatının təmin edilməsindəki roluna görə böyük önəm kəsb edir. Bu məsələlərin kompleks şəkildə araşdırılması mövzunu daha da aktual edir.

2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı zəfərdən sonra Aİ-nin Azərbaycan-Ermənistan arasında vasitəçiliyi, əsasən də tərəflərarası görüşlər təşkil etməsi Aİ-nin regionda maraqlarının artması və fəal siyasət yürütmək cəhdləri mövzunun aktuallığını şərtləndirir.

Bütövlükdə, Azərbaycanın xarici siyasətində Aİ ilə əməkdaşlığın qurulduğu 1992-ci il tarixindən bu günə qədər olan dövrünün indiyə qədər kompleks şəkildə tədqiq edilməməsi siyasi elmlər sahəsində müəyyən boşluq yaradırdı. Təqdim edilən dissertasiya işi də bu boşluğun doldurulması istiqamətində edilən bir cəhd hesab edilə bilər.

Azərbaycan Respublikasının Aİ ilə əməkdaşlığının dərinləşdirilməsi istiqamətindəki ziddiyyətlər, Avropa bazarında öncül yer tutmağa çalışması, Avropa şirkətlərinin Azərbaycana cəlb edilməsi fonunda nəzərdən keçirilməsi mövzunu daha da aktual edir. Bu gün ümummilli lider Heydər Əliyevin Azərbaycan Resublikasının xarici siyasətində əsasını qoyduğu çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursuna uyğun olaraq

dövlətimiz beynəlxalq münasibətlər sistemində layiqli yerini tutur. Əsas məqsədi baş verməkdə olan hadisə və proseslərin hərtərəfli araşdırmaqla qarşıda duran vəzifə və inkişaf yollarını müəyyənləşdirmək, müəyyən əsası olan elmi proqnozlar vermək olan siyasi elmlər sahəsi üçün Azərbaycanın xarici siyasət kursu qiymətli bir təcrübə kimi ortaya çıxır. Bu təcrübə əsasında dissertasiya işində Azərbaycanın AI ilə əməkdaşlığının mövcud vəziyyəti və perspektivlərinin sistemli şəkildə öyrənilməsi və onun əsas mərhələlərinin müəyyən edilməsi mövzunu aktual edən bir başqa cəhətdir.

Qeyd edilən amillər Azərbaycanın Aİ ilə əməkdaşlığının öyrənilməsinin aktuallığını şərtləndirir və mövzunun dissertasiya işi kimi tədqiq edilməsini zəruri edir.

Mövzunun öyrənilmə səviyyəsinə nəzər salarkən tədqiqata cəlb edilən əsərləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müasir beynəlxalq münasibətlər tarixinə, Azərbaycanın xarici siyasətinə və onun inkişaf mərhələlərinə həsr olunan tədqiqat əsərləri;
2. Aİ, onun strukturu və əsas fəaliyyət istiqamətlərinə həsr edilən tədqiqat əsərləri;
3. Azərbaycan və Aİ arasındakı əməkdaşlığa həsr olunan tədqiqat əsərləri.

Tədqiqata cəlb edilən əsərlərə obyektiv qiymət verilməyə cəhd edilmiş və istifadəsi zamanı müqayisəli təhlil süzgəcindən keçirilmişdir.

Birinci qrupa daxil olan tədqiqat əsərlərinə misal olaraq "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)" adlı məqalələr toplusunu göstərmək olar. Bu topluda Azərbaycan Respublikasının xarici siyasətinin iqtisadi və humanitar aspektləri, enerji siyasəti, müstəqil və müasir xarici siyasi kursu və diplomatiya məsələləri tədqiqata cəlb edilmişdir.[1] Müstəqillik illərində Azərbaycan Respublikasının xarici siyasətinin formalaşması və inkişafı, elmi-nəzəri əsasları və əldə edilən praktiki nəticələr bir çox əsərlərdə ətraflı şəkildə şərh olunmuşdur. Bu istiqamətdə

---

[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / red.: F. Məmmədov, C. Vəliyev, A. Məmmədov. – Bakı: "Poliart" MMC, – 2017. – 904 s.

Y.Mahmudovun [2], M.Qasımovun əsərləri [3] Azərbaycan xarici siyasətinin konseptual məsələlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədqiqata cəlb edilən əsərlərin ikinci qrupuna M.Ə.Baxışovun[4], R.Ə.Sadıqovun [5], Ş.İ.Zeynalovanın [6], A.Ökçayın [7], H.Samurun [8], N.K.Arbatova, P.A.Kaliniçenkonun, K.İ.Trubaçevanın [9], M.J.Dedmanın [10], A.M.El-Aqranın [11], V.V.Gervenin [12], S.Mayerin [13], T.L.Moqanın, D.Alekseyevin [14] və başqalarının tədqiqat əsərləri

---

[2] Mahmudov, Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Y.Mahmudov. – Bakı: Təhsil, – 2002. – 328 s.

[3] Qasımov, M.C. Azərbaycanın xarici siyasəti: konsepsiya məsələləri / M. Qasımov: elmi red.: Həsən Əlibəyli. – Bakı: Mütərcim, – 1997. – 124 s.

[4] Baxışov, M.Ə. Avropa İttifaqı ilə Rusiya Federasiyası arasında münasibətlərin inkişafı // – Bakı: Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. – 2010. №4, – s.79-82.

[5] Sadıqov, R.Ə. Avropa İttifaqının Şərq Siyasətində Cənubi Qafqaz faktoru: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2011. – 153 s.

[6] Zeynalova, Ş.İ. Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesləri: problemlər və onların həlli perspektivləri / Ş.İ.Zeynalova. – Bakı: Elm və Təhsil, – 2021. –221 s.

[7] Akçay, Ö. Avrupa komşuluk politikası // Ulusaldan Küresele: Popülizm, Demokrasi, Güvenlik Konferansı, – İstanbul: – 10 Aralık – 11 Aralık, – 2020, – s.1-6.

[8] Samur, H. Avrupa Komşuluk politikası ve amaçları // – Türkiye: Elektronik Sosyal Bilimler Dergisi, – c. 8. – 2009. Sayı 27 (018-035), – s. 18-35

[9] Европейский Союз и региональные конфликты / Отв. ред. – Н.К. Арбатова, А.М. Кокеев. – М.: ИМЭМО РАН, 2011. – 143 с.; Калиниченко, П.А., Трубачева, К.И. Европейский Союз на постсоветском пространстве: право, интеграция, геополитика: монография / П.А. Калиниченко, К.И.Трубачева. – М.: РосНОУ, 2012. – 208 с.

[10] Dedman M.J. The Origins and Development of the European Union. A history of European integration 1945–95. – New York: Taylor & Francis e-Library, – 2001. – 158 p.;

[11] El-Agraa, A.M. The European Union. Economics and Policies / M.El-Agraa. – Cambridge: Cambridge University Press, – 2007. – 633 p.

[12] Gerven, W.V. The European Union. A Polity of States and Peoples / W.Gerven. – California: Stanford University Press, – 2005. – 414 p.

[13] Mayer, S. "TACIS and EU's security of energy supply: the Commission as a strategic actor in external relations," TranState Working Papers 46, University of Bremen, Collaborative Research Center 597: Transformations of the State. – Breme: EU, – 2006. – 35 p.

[14] Moga, T.L., Alexeev, D. Post-Soviet States between Russia and the EU: Reviving Geopolitical Competition? A Dual Perspective. Connections // The Quarterly Journal, – 2013. №1, Vol. 13. – p. 41-52

daxildir. Qeyd edilən müəlliflər əsərlərini Aİ, onun xarici siyasətinin və regional siyasətin genişlənməsi, "Avropa qonşuluq siyasəti", "Şərq Tərəfdaşlığı" kimi təşəbbüslərin öyrənilməsinə həsr etmiş və tədqiq olunan mövzu üçün maraqlı və dəyərli fikirlər irəli sürmüşlər.

Tədqiqat prosesində istifadə edilən əsərlərin üçüncü qrupu Azərbaycan və Aİ arasındakı münasibətlərdən bəhs edir. Bu istiqamətdə yazılan əsərlərə misal olaraq Hicran Hüseynovanın dissertasiya işini [15] qeyd edə bilərik. Tədqiqat işində Azərbaycanın Avropa inteqrasiya proseslərinə qoşulmasını şərtləndirən tarixi, elmi-nəzəri və sosial-siyasi amillərin səciyyəsi, Azərbaycanın Avropa inteqrasiya proseslərinə qoşulmasında beynəlxalq təşkilatların rolu, Azərbaycanın Türkiyə, Böyük Britaniya, Fransa və Almaniya ilə əməkdaşlığı fonunda Avropa ölkələri ilə əlaqələri, "Neft diplomatiyası"nın Azərbaycanın Avropa inteqrasiya proseslərinə qoşulmasında rolu öyrənilmişdir. Lakin əsərin xronoloji çərçivəsinin 1991-2001-ci illəri əhatə etməsini nəzərə alsaq bu tədqiqat işi Respublikamızın Aİ ilə münasibətlərinin yalnız ilkin dönəminə nəzər salmağa imkan verir. S.Ə.Eyvazovanın əsərini[16] də xüsusi ilə qeyd etmək lazımdır. Bu əsərdə Azərbaycan Respublikasının Aİ-yə inteqrasiyasının prioritetləri, Aİ və Azərbaycan Respublikası arasında əməkdaşlığın beynəlxalq hüquqi əsası, Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığının Aİ Təsis aktları ilə qarşılıqlı əlaqəsi, Aİ-nin iqtisadi-sosial təhlükəsizlik modelinin, o cümlədən enerji, investisiya, gömrük-tarifi sferasında beynəlxalq hüquqi əsasının Azərbaycan Respublikasının qanunvericilik sistemi üçün əhəmiyyəti geniş araşdırılmışdır. Leyla Vaqif qızının dissertasiya işi [17] də problemin tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

[15] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində: / siyasi elmlər doktoru dis. / – Bakı, 2001. – 314 [7] s.

[16] Eyvazova, S.Ə. Avropa İttifaqı və Azərbaycan Respublikası əməkdaşlığının hüquqi əsasları / S.Eyvazova. – Bakı: Azəməşr, – 2018. – 288 s.

[17] Vaqif qızı, L. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlıq (1991-2008-ci illər): / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2017. – 172 s.

Qeyd olunan əsərlərlə yanaşı R.Baxşəliyevin, [18] K.Adıgözəlovun [19], V.Bayramovun [20] və başqalarının Aİ-nin Azərbaycanla əməkdaşlığının, xüsusilə Vətən müharibəsindən sonrakı inkişaf mərhələsinə aid məqalələrini də fərqləndirmək olar. K.Adıgözəlovun müəllifi olduğu əsərdə ilk öncə 2015-ci ildən 2020-ci ilə qədər Aİ ilə Azərbaycan arasındakı münasibətlərin inkişaf dinamikası nəzərdə keçirilir və Azərbaycanın Aİ baxımından nə üçün və niyə əhəmiyyətli olması əsaslandırılır.[21] Bu əsərin ən maraqlı tərəfi bu məsələləri nəzərdən keçirdikdən sonra 44 günlük Vətən müharibəsində əldə edilən uğurun Azərbaycanın Aİ ilə münasibətlərində dönüş nöqtəsi olmasına diqqət çəkilməsidir. Məqalənin sonunda müəllifin önə sürdüyü *"Aİ-nin Zəngəzur dəhlizinin reallaşmasına münasibəti Brüssel üçün mühüm bir sınaq təsiri bağışlayır"* [22] fikri əslində araşdırmanın əsas mahiyyətini təşkil edir. Ən azından ona görə ki, 2022-ci ildə başlayan Ukrayna müharibəsi fonunda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından da bu son dərəcə vacibdir. V.Bayramovun müəllifi olduğu məqalələr isə əsasən təsviri və hesabat xarakterli yazılardır. Yəni Azərbaycanın Aİ ilə münasibətlərinin inkişaf dinamikasının təhlili çox zəif şəkildə təqdim edilir və əsasən tərəflərarası ziddiyyətlər diqqətdən qaçırılır.

---

[18] Baxşəliyev R. İlham Əliyev diplomatiyasının təntənəsi. Azərbaycanın Avropa İttifaqı və Rusiya ilə münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyması yüksələn beynəlxalq nüfuzun göstəricisidir // Azərbaycan. – 2021, 24 iyul. – s. 1; 3

[19] Adıgözəlov, K. Avropa İttifaqı – Azərbaycan münasibətləri: Prezident İlham Əliyevin təşəbbüsləri yeni perspektivlər açır // Xalq qəzeti. – 2021, 9 iyun. – s. 3-4.; Adıgözəlov, K. Avropa İttifaqının "Şərq Tərəfdaşlığı"na yeni yanaşması: İlham Əliyev diplomatiyasının strateji uğuru // Xalq qəzeti. – 2021, 20 avqust. – s. 3.

[20] Bayramov, V. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir // Xalq qəzeti. – 2020, 27 sentyabr. – s. 1.; Bayramov, V. Azərbaycanın təşəbbüsləri beynəlxalq aləmdə dəstəklənir // Xalq qəzeti. – 2021, 4 iyun. – s. 3.

[21] Adıgözəlov, K. Avropa İttifaqı – Azərbaycan münasibətləri: Prezident İlham Əliyevin təşəbbüsləri yeni perspektivlər açır // Xalq qəzeti. – 2021, 9 iyun. – s. 3-4.

[22] Adıgözəlov, K. Avropa İttifaqının "Şərq Tərəfdaşlığı"na yeni yanaşması: İlham Əliyev diplomatiyasının strateji uğuru // Xalq qəzeti. – 2021, 20 avqust. – s. 3.

Üçüncü qrup əsərlərdən E.Süleymanov[23], S.Həmidov[24], L.Axundov[25], F.Hüseynov[26], O.Şabelnikovanın[27] əsərlərini də fərqləndirmək lazımdır. Məsələn, E.Süleymanovun müəllifi olduğu əsərdə Aİ ilə Azərbaycan arasında münasibətlərin formalaşması və inkişaf dinamikası, prioritet əməkdaşlıq sahələri XX əsrin 90-cı illərindən 2011-ci ilə qədər olan xronoloji çərçivədə tədqiq olunur.[28] Bu əsərdə əldə edilən nəticə belədir ki, Aİ-nin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı mövqeyi hər zaman ehtiyatlı və amorf xarakter daşımışdır. Digər beynəlxalq təşkilatlar kimi Aİ də yalnız rəsmi sənədlər qəbul etməklə kifayətlənmiş, işğalçı Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq etməmiş və 2011-ci ilə qədər bu münaqişənin həlli prosesində aktiv iştirakçı olmayaraq qalmışdır.[29] Həqiqətən də 2011-ci ildən sonra bu baxımdan mühüm dəyişiklik baş verməmişdir. Yalnız 2020-ci il II Qarabağ müharibəsində Azərbaycanın qazandığı zəfər və 2022-ci ildə RF-nin Ukraynaya təcavüzü Azərbaycanın Aİ ilə münasibətlərində daha ciddi dönüş nöqtəsi olmuşdur. S.Həmidovun əsəri də[30] problemin tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu əsərdə Aİ-

---

[23] Süleymanov, E.S. Avropa İttifaqı və Azərbaycan : strateji tərəfdaşlığa doğru / E.S.Süleymanov. – Bakı: Cbs polygraphic production mətbəəsi, – 2011. – 112 s.

[24] Həmidov, S.S. Avropa İttifaqında siyasi inteqrasiya problemi : / siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2007. – 205 s.

[25] Ахундова, Л.Р. Азербайджан и европейские структуры: проблемы интеграции. : / Диссертация на соискание ученой степени кандидата политических наук. / – Москва, 2000. – 205 с.

[26] Гусейнов, Ф.Ш. Геополитические аспекты сотрудничества Европейского Союза и Азербайджанской Республики Азербайджан и европейские структуры: проблемы интеграции: : / Диссертация на соискание ученой степени кандидата политических наук. / – Баку, 2011. – 163 с.

[27] Шабельникова, О.В. Политика Европейского союза в отношении Азербайджанской Республики: 1991-2014 гг.: /Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. / - Москва, 2014. - 27 с.

[28] Süleymanov, E.S. Avropa İttifaqı və Azərbaycan : strateji tərəfdaşlığa doğru / E.S.Süleymanov. – Bakı: Cbs polygraphic production mətbəəsi, – 2011. – 112 s.

[29] Süleymanov, E.S. Avropa İttifaqı və Azərbaycan : strateji tərəfdaşlığa doğru / E.S.Süleymanov. – Bakı: Cbs polygraphic production mətbəəsi, – 2011. – s. 55

[30] Həmidov, S.S. Avropa İttifaqında siyasi inteqrasiya problemi : / siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2007. – 205 s.

nin siyasi inteqrasiya problemləri, "Vahid Avropa" ideyası, bu təşkilatın təhlükəsizlik və müdafiə sahəsindəki xarici siyasi kursu, Aİ və Azərbaycan Respublikası arasındakı ikitərəfli münasibətlər geniş şəkildə təhlil olunmuşdur. O.Şabelnikovanın müəllifi olduğu bir başqa dəyərli tədqiqat işində[31] 1991-2014-cü illər çərçivəsində Aİ-nin Azərbaycanla münasibətləri araşdırılmışdır. Bu əsərin I fəslində Aİ ilə Azərbaycan Respublikası arasında münasibətlərin formalaşması və inkişafı, II fəslində Aİ və Azərbaycan Respublikasının AQS və ŞT proqramları çərçivəsində qarşılıqlı əməkdaşlığı, III fəslində isə Aİ və Azərbaycan Respublikası arasındakı qarşılıqlı münasibətlərdə təhlükəsizlik məsələləri [32] problem kimi qoyulmuş və həllinə çalışılmışdır. F.Hüseynovun əsəri [33] də tədqiq etdiyimiz problemin geosiyasi tərəflərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin bu əsərdə də tədqiq etdiyimiz problemin 2011-ci ilə qədər olan dövrü işıqlandırılır. L.Axundovanın əsəri [34] də tədqiq etdiyimiz problemin araşdırılması baxımından əhəmiyyətli olsa da bu əsərdə də Azərbaycanın Avropanın beynəlxalq strukturları, o cümlədən Aİ ilə münasibətləri 2000-ci ilə qədər nəzərdən keçirilmişdir.

İşin mənbə bazasını isə hüquqi aktlar, dövlət və hökumət başçılarının çıxışları, Xarici İşlər Nazirliyinin, Aİ-nin nəşr

---

[31] Шабельникова, О.В. Политика Европейского союза в отношении Азербайджанской Республики: 1991-2014 гг.: /Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. / – Москва, 2014. – 27 с.

[32] Шабельникова, О.В. Политика Европейского союза в отношении Азербайджанской Республики: 1991-2014 гг.: /Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. / – Москва, 2014. –с. 17-19

[33] Гусейнов, Ф.Ш. Геополитические аспекты сотрудничества Европейского Союза и Азербайджанской Республики Азербайджан и европейские структуры: проблемы интеграции: / Диссертация на соискание ученой степени кандидата политических наук. / – Баку, 2011. – 163 с.

[34] Ахундова, Л.Р. Азербайджан и европейские структуры: проблемы интеграции.: / Диссертация на соискание ученой степени кандидата политических наук. / – Москва, 2000. – 205 с.

edilmiş arxiv materialları və digər rəsmi sənədlər təşkil edir. Azərbaycanın Aİ ilə əlaqələrinin qurulmasında və inkişafında, bu əməkdaşlığın hüquqi əsaslarının yaradılmasında ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir. Bu baxımdan Azərbaycanın Aİ ilə əməkdaşlığına dair onun baxışlarını, bəyanatlarını, müsahibələrini, avropalı rəsmilərlə görüşlərdə səsləndirdiyi fikirləri özündə əks etdirən "Müstəqilliyimiz əbədidir" adlı 46 cildik toplu [35] tədqiqatın mühüm mənbə bazasını təşkil edir. Ümummilli lider Heydər Əliyevin xarici siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarını, bəyanatlarını, müsahibələrini özündə əks etdirən "İnkişafımız – məqsədimizdir" [36] adlı 116 cildik toplu tədqiqatın ən mühüm mənbələrindən hesab edilə bilər.

Müxtəlif sənəd topluları da problemin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu toplulara misal olaraq "Azərbaycanın xarici siyasəti" [37], "Ermənistanın Azərbaycana təcavüzü" [38] adlı sənəd toplularını misal göstərmək olar. Xüsusilə də "Ermənistanın Azərbaycana təcavüzü" adlı sənəd toplusunda öz əksini tapan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Aİ tərəfindən 1992-ci ildən 2002-ci ilə qədər verilən bəyanatlar problemin öyrənilməsi baxımından mühüm mənbə rolunu oynayır.

Aİ-nin ayrı-ayrı proqramları ilə bağlı hazırlanan illik hesabatlar da problemin mənbə bazasına daxildir. Məsələn TACİS proqramının 1993-cü il, 1995-ci ildə qəbul edilmiş illik

---

[35] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – 1997-2013.

[36] Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [116 cilddə] / İ.Əliyev – Bakı: Azərnəşr, – 2008-2022.

[37] Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2005. İkinci hissə / Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. – Bakı: GARİSMA MMC, – 2009. – 688 s.

[38] Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, – 2015. – 324 s.

hesabatlarını[39], eyni zamanda TRACECA proqramının 1998-2002-ci illər üzrə dəyərləndirilməsinə dair yekun hesabatını [40]örnək verə bilərik.

Dünyanın, o cümlədən də Avropanın müxtəlif beynəlxalq strukturlarının qəbul etdiyi sənədlərə, yekun aktlarına da yeri gəldikcə müraciət edilmişdir. Misal üçün BMT-nin Nizamnaməsini, 1975-ci il Helsinki Yekun aktını, ATƏT-in 1992-ci il Helsinki sənədini, 1990-cı il Paris və 1992-ci il İstanbul xartiyalarını[41] qeyd edə bilərik.

Bütövlükdə tədqiqata cəlb edilən çoxsaylı mənbələrdən Azərbaycan-Aİ əməkdaşlığının inkişafı probleminin daha obyektiv şəkildə işıqlandırılması istiqamətində geniş şəkildə istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycanın Respublikasının Aİ ilə əməkdaşlığının tədqiqi dissertasiya işinin əsas tədqiqat obyektidir. Tədqiqatın predmeti isə tərəflər arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinin tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd tədqiq olunan dövrdə Azərbaycanın Aİ ilə əməkdaşlığının qurulmasına və tərəflərarası münasibətlərin inkişaf dinamikasına təsir edən daxili və xarici amilləri müəyyən etməkdir. Daha sonra bu istiqamətdə əldə olunan nəticələri ümumiləşdirməklə Azərbaycanın xarici siyasətində Aİ ilə əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri barədə tam təsəvvür formalaşdırmaqdır. Bu

---

[39] European Commission: The Tacis Programme Annual Report 1995. Com (96) 345 final. – Brussel: EC, – 1996. – 64 p.; Report from the comission Tacis. 1993 annual report. Brussel 23.03.1995. COM (95) 57 final. – Brussel: EU, – 1995. – 71 p.

[40] Evaluation of TRACECA Programme (1998-2002). Request for Services No 2002/47681. final report. July 2003, A project implemented by Jacobs Consultancy, – 2003. – 195 p.

[41] Charter of the United Nations and statue of the international court of justice. – San Francisco: UN, – 1945. – 54 p.; Conference on security and co-operation in Europe Final act. – Helsinki: OSCE, – 1975. – 62 p.; CSCE Helsinki document 1992: The challenges of change. – Helsinki, – 1992. – 90 p.; Charter for European Security. – Istanbul: OSCE, – 1999. – 259 p.; Charter of Paris for a New Europe. – Paris: OSCE, – 1990. – 29 p.

məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

– Azərbaycanın xarici siyasətində Avropa vektorunun konseptual əsaslarını və prioritetlərini araşdırmaq, bu məqsədlə də ilk növbədə Azərbaycanın xarici siyasətinin formalaşması və konseptual əsaslarına aydınlıq gətirmək;

– Azərbaycanın xarici siyasətində dünyanın əsas güc mərkəzlərindən biri hesab edilən Aİ ilə münasibətlərin nə qədər zəruri və əhəmiyyətli olmasını müəyyənləşdirmək;

– Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi Aİ ilə əməkdaşlığın qurulmasının önəmini aydınlaşdırmaq;

– Aİ-nin post-sovet ölkələri ilə münasibətlərində əməkdaşlığın yeni formalarına diqqət yetirmək;

– Azərbaycanın Aİ-nin mühüm proqramlarında iştirakına nəzər salıb bu institusional müxanizmlər üzrə bu günədək əldə edilən nəticələri dəyərləndirmək;

– Azərbaycanın Aİ ilə Yeni qonşuluq və Şərq tərəfdaşlığı siyasəti çərçivəsində əməkdaşlığının əsas istiqamətlərinə və tərəflər arasındakı mövcud ziddiyyətlərə aydınlıq gətirmək;

– Azərbaycan-Aİ münasibətlərinin inkişaf meyillərini və tərəflərarası qarşılıqlı maraqları təhlil etmək;

– Azərbaycanın Aİ ilə əməkdaşlığı konteksində mövcud olan fərqli və ziddiyyətli məqamlara nəzər yetirmək;

– Tarixi zəfərdən sonra yenidən formalaşan Azərbaycan-Aİ münasibətlərinin prioritet istiqamətlərini müəyyənləşdirmək;

– Azərbaycan-Aİ əməkdaşlığının dərinləşdirilməsi problemi və perspektivlərini aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Disertasiya işində tətbiq edilən metodlar tarixilik, elmi obyektivlik, etibarlılıq prinsiplərinə əsaslanır. Xüsusilə də, tarixilik prinsipi Aİ-nin Azərbaycan Respublikası ilə münasibətlərində siyasi kursunun formalaşma mərhələlərini izləmək imkanı verir. Bu prinsip həm də Azərbaycanın xarici siyasətində Aİ ilə əməkdaşlığının mövcud vəziyyəti və perspektivlərini daha aydın anlamaq üçün mühüm əhəmiyyət kəsb edir. Çünki tarixilik prinsipi ikitərəfli

münasibətlərin inkişaf xüsusiyyətlərini müəyyən etməyə, müvafiq nəticələr və ümumiləşdirmələr aparmağa şərait yaradır. Tədqiqatın gedişində əsas götürülən obyektivlik prinsipi siyasi, iqtisadi, enerji və digər istiqamətlərdə olan faktorların xüsusiyyətlərini nəzərə alaraq onların təhlilini zəruri edir. Tədqiqat işində müraciət edilən elmi etibarlılıq prinsipi isə problemin ilkin mənbələrə, geniş faktlara və əsaslı elmi məlumatlara söykənərək araşdırılmasını və daha etibarlı nəticələr əldə edilməsini təmin edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Bu müddəalar aşağıdakılardan ibarətdir:

– Aİ ilə münasibətlərin inkişafı müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin ən mühüm prioritetlərindən biridir;

– Azərbaycan Respublikasının Aİ ilə imzaladığı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi təşkilatın öz standartlarını Azərbaycana diktə etməsi xarakteri daşımır, sadəcə tərəflərin üzərinə müəyyən öhdəliklər qoyur;

– Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycanın Aİ ilə müxtəlif sahələrdə müxtəlif proqramlar çərçivəsində əməkdaşlığı üçün baza rolunu oynamış və tərəflərarası münasibətlərin gələcək inkişafına zəmin yaratmışdır;

– Azərbaycan Respublikasının Aİ-nin TACİS proqramı və onun çoxtərəfli şəbəkə layihələri - TRACECA və İNOGATE çərçivəsində əməkdaşlığı dövlətimizin iqtisadi potensialının yüksəldilməsinə, Avropa dövlətləri ilə ticarət və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsinə, ölkəmizə cəlb edilən xarici sərmayənin daha da artırılmasına imkan vermişdir;

– Azərbaycan Respublikasının iştirak etdiyi TEMPUS və Erasmus Mundus kimi layihələr Avropa təhsil məkanına inteqrasiyada mühüm əhəmiyyət kəsb etmişdir;

– İkitərəfli münasibətlər əsasən qarşılıqlı maraqlar üzərində qurulmuşdur, bu baxımdan tərəflərarası strateji tərəfdaşlıq sazişinin imzalanması hər iki tərəf üçün üzvlükdən daha faydalıdır;

– II Qarabağ müharibəsindən sonra regionda yaranan yeni geosiyasi reallıqlar fonunda Azərbaycan-Aİ münasibətləri yeni məzmun və əhəmiyyət kəsb etməyə başladı;

– 2023-cü ilin sentyabr ayında Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatlarından sonra respublikamızın bütün ölkə ərazisində suverenliyini tam təmin etməsi Azərbaycan-Aİ əməkdaşlığının yeni, daha mütərəqqi səviyyəyə keçməsində mühüm rol oynadı;

– Azərbaycan Respublikası Avropa üçün enerji təhlükəsizliyi faktorunun əsas təminatçılarından biridir.

**Tədqiqatın elmi yeniliyi.** Disertasiya işində qarşıya qoyulan bütün elmi məsələlər araşdırılarkən ilk mənbələrin məlumatları əsas götürülmüşdür. Azərbaycanın xarici siyasətində Aİ ilə əməkdaşlığın qurulduğu 1992-ci il tarixindən bu günə qədər olan dövrü, xüsusilə II Qarabağ müharibəsi və 2023-cü il 19-20 sentyabr tarixlərində respublikamız tərəfindən həyata keçirilən antiterror əməliyyatları nəticəsində regionda formalaşan yeni tendensiyaların fonunda Azərbaycan-Aİ münasibətləri siyasi elmlər sahəsində ilk dəfə olaraq tədqiqat obyektinə çevrilmişdir və araşdırmanın gedişində aşağıdakı elmi nəticələr əldə olunmuşdur:

– Azərbaycanın Respublikasının Aİ ilə əməkdaşlığının 1992-ci il tarixindən bu günədək olan mərhələsi ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir;

– Azərbaycanın xarici siyasətində Avropa vektorunun konseptual əsasları və prioritetləri tədqiq edilən xronoloji çərçivədə kompleks şəkildə işlənilmişdir;

– Azərbaycanın Aİ-nin mühüm proqramlarında iştirakı və münasibətlərdəki qarşılıqlı maraqlar tədqiq edilən xronoloji çərçivədə ilk dəfə kompleks şəkildə öyrənilmişdir;

– Azərbaycan Respublikasının Aİ ilə əməkdaşlığının II Qarabağ müharibəsindən əvvəl və sonrakı dövrdə inkişaf dinamikası müqayisəli şəkildə təhlil edilmiş və əldə edilən nəticələr ümumiləşdirilərək faydalı tövsiyələr irəli sürülmüşdür;

– Siyasi elmlər sahəsində ilk dəfə olaraq dövlətimizin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatları

nəticəsində regionda formalaşdırdığı yeni geosiyasi reallıqlar fonunda Azərbaycan-Aİ qarşılıqlı münasibətlərindəki ziddiyyətlər və perspektivlər ətraflı şəkildə tədqiq olunmuş və müəyyən nəticələr əldə edilmişdir;

– Respublikamızın həyata keçirdiyi çoxvektorlu strateji manevrlərlə müşayiət olunan çevik diplomatiyası nəticəsində Cənubi Qafqaz və Mərkəzi Asiya ilə yanaşı, Çin və Yaxın Şərq ölkələri ilə də münasibətlərinin yeni məzmun qazanması Azərbaycanın geosiyasi müstəvidəki yerinin daha da güclənməsi ilə müşayiət olunduğundan bu konteksdə Aİ üçün artıq sadəcə enerji təminatçısı rolunu oynamadığı, eyni zamanda qlobal təhlükəsizlik məsələlərində də mühüm tərəfdaşa çevrildiyi qənaətinə gəlinmişdir;

– Azərbaycan Respublikasının Şərq və Qərb arasında balanslaşdırılmış siyasət yürüdərək, dünya siyasətindəki orta güc faktoruna yeni və tamamilə fərqli strateji məzmun verdiyi önə çıxarılmışdır;

– Azərbaycanın Aİ ilə əməkdaşlığında qarşılıqlı maraqlar, inkişaf meyilləri, mövcud ziddiyyətlər, münasibətlərin prioritet istiqamətləri və perspektivlər ayrıca problem kimi tədqiq edilən xronoloji çərçivədə ilk dəfə araşdırılmışdır;

– Ermənistan-Azərbaycan münaqişəsi əvəzinə bu gün Qarabağda quruculuq işlərinin müzakirəsinin aparılması, Zəngəzur dəhlizi planının reallaşdırılması, Cənubi Qafqaz regionunu birləşdirməklə Azərbaycanın öz üzərinə xüsusi missiya götürməsi kimi yeni hədəflərin dissertasiyada öz əksini tapması da tədqiqatın elmi yeniliyidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində istifadə edilən faktik materiallardan və əldə edilən nəticələrdən universitetlərin humanitar və sosial elmlər fakültələrində "Azərbaycanın xarici siyasətində Avropa İttifaqı: əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri" mövzusunda ixtisas kurslarının aparılmasında, tədris vəsaitlərinin hazırlanmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, elmi konfrans və seminarların keçirilməsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi Bakı Slavyan

Universitetinin "Diplomatiya və xarici siyasət" kafedrasının 23 iyun 2022-ci il tarixli iclasında müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəaları müəllifin elmi məqalələrində, həmçinin Bakı Slavyan Universitetində, ölkənin digər elm ocaqlarında və tədris müəssisələrində, habelə ölkə hüdudlarından kənarda təşkil olunmuş elmi konfranslardakı çıxışlarında əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin "Diplomatiya və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş, 3 fəsil, 9 yarımfəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 264356 işarədən ibarətdir. O cümlədən, giriş – 25061, I fəsil – 59321, II fəsil – 83784, III fəsil – 85371, nəticə – 9174 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**"Azərbaycanın xarici siyasətinin Avropa vektoru: konseptual əsaslar"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. **"Azərbaycanın xarici siyasətinin formalaşması və konseptual əsasları"** adlanan birinci yarımfəsildə ilk öncə 1991-ci ildə yenidən müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında azadlığın ilk illərində mürəkkəb siyasi vəziyyətin konseptual əsasların formalaşmasına təsiri aydınlaşdırılır. Məlum olur ki, Qərbdə müstəqilliyimizin ilk illərində Azərbaycan xalqı islam təməlçiliyində, fanatizmdə, 1992-1993-cü illərdə isə aşırı millətçilikdə, Ermənistanı "blokadaya almaqda" günahlandırılırdı. Qərb mətbuatı da öz

növbəsində güclü antiazərbaycan təbliğatı aparırdı. Lakin ümummilli lider, ulu öndər Heydər Əliyevin 1993-cü ildən Azərbaycana yenidən rəhbərlik etməyə başlaması ilə Azərbaycan Respublikası erməni lobbisinin səyləri ilə dünya informasiya məkanında blokadaya alınmış vəziyyətdən regional təşəbbüskar və lider səviyyəsinə yüksələ bildi. Bu yarımfəsildə qeyd olunur ki, ümummilli lider siyasi xəttini hələ Milli Məclisin sədri olarkən müəyyən etmiş və Azərbaycanın xarici siyasətinin konseptual əsaslarını o zamandan bəri müəyyənləşdirmişdi: *"Azərbaycanın xarici siyasəti azad və müstəqildir. Ölkəmiz bütün dünya dövlətləri üçün açıqdır. Biz Azərbaycanın müstəqilliyini tanıyan, onun mənafeyinə toxunmayan, ölkəmizə müsbət münasibət göstərən hər bir dövlətlə əlaqələr qurmağa hazırıq və belə əlaqələr qururuq. Azərbaycan bütün ölkələrlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq yolu ilə gedir və bu yolu davam etdirəcəkdir. Azərbaycan öz xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişlənməsinə çox böyük fikir verir".*[42] Bütövlükdə, ölkəmizin yerləşdiyi regionda ölkələrlə əlaqələr sistemi çox mürəkkəb və ziddiyyətlidir. Bu da Azərbaycanın xarici əlaqələrdə balanslı regional siyasət yürütməsini xüsusi prioritet kimi ön plana çıxarır. Çünki balanslı regional siyasət ölkənin təhlükəsizliyi və müstəqil gələcəyi üçün şəksiz ən vacib təminatçı rolunu oynaya biləcək amildir.

**"Avrointeqrasiya proseslərinin inkişafı və Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə əməkdaşlığın əhəmiyyəti"** adlanan ikinci yarımfəsildə ilk öncə Avropada inteqrasiya prosesləri, Qərb ictimai-siyasi fikrində "avropaizm", ya da "atlantizm" prizmasından inteqrasiyaya baxış şərh edilir. "Avropaizm" adından da göründüyü kimi Qərbi Avropanı siyasi və iqtisadi inteqrasiya prosesləri üçün ön planda gördüyü halda, "Atlantizm" nəzəriyyəsi "kommunist Şərqə qarşı" Atlantik okeanı hövzəsi dövlətlərinin hərbi-siyasi birliyi fikrini müdafiə

---

[42] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 2. – 1997. – s. 47.

edirdi. Bu yarımfəsildə inteqrasiyanın inkişaf yollarını əks etdirən funksionalist və neofunksionalist, federalist və transmilli (plüralist) məktəblər də nəzərdən keçirilir. Daha sonra hal-hazırda 27 Avropa ölkəsinin iqtisadi və siyasi tərəfdaşlıq etdiyi birlik olan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasındakı münasibətlərə qısa şəkildə aydınlıq gətirilir. Məlumdur ki, bu təşkilatın yaranış tarixi XX əsrin 50-ci illərinə təsadüf edir. 1948-1952-ci illərdə Fransanın Xarici İşlər Naziri olmuş Robert Şuman kömür və polad istehsalının birləşdirilməsi təklifi ilə çıxış etdi və nəticədə 6 dövlətin – Fransa, AFR, Belçika, Niderland, Lüksemburq və İtaliyanın iştirakı ilə 1951-ci il mart ayının 19-da Paris müqaviləsi imzalandı. Bu müqavilə ilə Avropanın Polad və Kömür birliyi təsis edildi.[43] 1992-ci il 7 fevral tarixində imzalanan və 1993-cü il 1 noyabr tarixində qüvvəyə minən Maastrix sazişi ilə Avropa Birliyi Avropa İttifaqı kimi tanınmağa başladı. SSRİ-nin süqutundan sonra yaranan 15 müstəqil respublika da Avropa Birliyi ilə birbaşa əlaqələr qurmağa çalışırdı. Demək olar ki, postsovet ölkələrinin hamısı Birliyin və ona üzv dövlətlərinin 23 dekabr 1991-ci il tarixli "Rusiyanın və digər keçmiş sovet respublikalarının statusu haqqında" bəyanatı ilə tanındılar.[44] Bu cür bir sistemə malik qurumla əməkdaşlığın qurulması 1991-ci ildə yenicə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası üçün son dərəcə vacib idi. Həmin dövr Azərbaycan rəhbərliyi də bunu yaxşı başa düşür və dövlətin xarici siyasətində əsas prioritet istiqamətlərindən biri kimi məhz Aİ ilə əməkdaşlığın yaradılmasına çalışırdı.

Birinci fəslin **"Avropa İttifaqının post-sovet ölkələri ilə münasibətlərində əməkdaşlığın yeni formaları"** adlanan sonuncu – üçüncü yarımfəslində verilən məlumatlardan aydın olur ki, Aİ-nin postsovet ölkələri ilə ilkin əməkdaşlıq forması əsasən tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlərə əsaslanırdı.

---

[43] Dedman, M.J. The Origins and Development of the European Union. A history of European integration 1945–95. – New York: Taylor & Francis e-Library, – 2001. – p.57

[44] 103. Заявление Сообщества и государств-членов от 23 декабря 1991 г. о "двенадцати" о будущем статусе России и других бывших советских республик // Bull EC. – 1991. №12. – Point 1.4.10

Lakin Tərəfdaşlıq və Əməkdaşlıq haqqında saziş formasında postsovet ölkələri ilə əməkdaşlıq forması yalnız Baltikyanı ölkələrə münasibətdə bir qədər fərqli məcrada inkişaf etmişdi. Hətta Baltikyanı ölkələr həm Aİ-yə, həm də NATO-ya eyni ildə üzv qəbul edilmişdilər. Lakin Cənubi Qafqaza münasibətdə vəziyyət tamam fərqli olmuşdur. Bu yarımfəsildə Avropa İttifaqının Qonşuluq Siyasəti[45], 2000-2006-cı illər üzrə tətbiq edilən MDB ölkələrinə dair TACİS, MEDA[46], Qərbi Balkan ölkələrinə dair CARDS[47] və EİDHR[48] adlı müxtəlif maliyyə və tematik proqramları da sadalanır və onların əsasən qonşuluq siyasətinin maliyyə təminatı üçün icra olunduğu vurğulanır. Xüsusilə TACİS proqramı fərqləndirilir. Çünki bu proqram Avropa İttifaqının MDB ölkələrində iqtisadi islahatların sürətləndirilməsinə yardım məqsədilə həyata keçirdiyi xüsusi proqramdır. Bu proqram sadəcə MDB ölkələrinə islahatlar yolunda veriləcək hər hansı bir dəstəklə məhdudlaşmırdı, Avropanın enerji təchizatı təhlükəsizliyinin təmin edilməsini də əhatə edirdi. [49] Bu yarımfəsildə diqqəti cəlb edən bir başqa məqam Aİ-nin şərqə doğru genişlənməsinə qarşı Rusiya Federasiyasının sərgilədiyi münasibətdir. Belə ki, Gürcüstan, Ukrayna ətrafında cərəyan hadisələr şərh edilir və bir daha sübut edilir ki, Aİ-nin yeni genişlənmə dalğası üçün Qafqazda Rusiya amili öz həllini tapmadıqca real görünmür.

---

[45] Eyvazova, S.Ə. Avropa Qonşuluq Siyasəti – Azərbaycan Respublikası ilə əməkdaşlığın hüquqi əsasları / S.Ə.Eyvazova. – Bakı: Azərnəşr, – 2018. – s. 22; Akçay, Ö. Avrupa komşuluk politikası // Ulusaldan Küresele: Popülizm, Demokrasi, Güvenlik Konferansı, – İstanbul: – 10 Aralık – 11 Aralık, – 2020, – s.1.

[46] The Euro-Mediterranean Partnership (MEDA): [Electronic resource] / URL: https://www.fiec-ar.eu/commissions/the-euro-mediterranean-partnership-meda

[47] CARDS: [Electronic resource] / URL: https://ec.europa.eu/neighbourhood-enlargement/enlargement-policy/glossary/cards_en

[48] European Instrument for Democracy and Human Rights (EIDHR) : [Electronic resource] / URL: https://ec.europa.eu/info/sites/default/ files/about_the_european_commission/eu_budget/db_2021_programme_statement_european_instrument_for_democracy_and_human_rights_eidhr.pdf

[49] Mayer, S. "TACIS and EU's security of energy supply: the Commission as a strategic actor in external relations," TranState Working Papers 46, University of Bremen, Collaborative Research Center 597: Transformations of the State. – Breme: EU, – 2006. – 35 p.

Dissertasiya işinin **"Azərbaycan-Avropa İttifaqı münasibətlərinin dinamikası və əsas xüsusiyyətləri"** adlanan ikinci fəsli də üç yarımfəsildən ibarətdir. Ikinci fəslin **"Müstəqilliyin bərpasından sonra Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişaf xüsusiyyətləri"** adlanan birinci yarımfəslində ilk öncə 1991-ci ildən 1996-cı ilə qədər Azərbaycan Respublikasının Aİ ilə münasibətlərinə, xüsusilə təşkilatın Ermənistan-Azərbaycan münaqişəsinə dair verdiyi bəyanatlara diqqət yetirilir. Aparılan tədqiqatın nəticəsində aydın olur ki, müstəqilliyin bərpasının ilk illərində əsas hədəfi beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirmək olan Azərbaycan Respublikası Aİ ilə əməkdaşlıq qurmaqla nəinki bu məqsədinə nail olmuş, hətta ölkəmizin gələcəkdə həm siyasi, həm iqtisadi, həm də sosial sferalarda daha sürətli inkişafı üçün münbit zəmin yaratmışdır. Xüsusilə də ulu öndərin müdrik siyasətinin nəticəsi kimi 22 aprel 1996-cı il tarixində Lüksemburqda Azərbaycan Respublikası ilə Avropa İttifaqi arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, inteqrasiya prinsiplərini, beynəlxalq sülhü və təhlükəsizliyi möhkəmləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün dövlətimiz üçün geniş üfüqlər açmışdır.[50] Aydın olur ki, Aİ ilə Azərbaycan Respublikası arasındakı qarşılıqlı münasibətləri formalaşdıran və ilkin dönəmdə tərəflərarası əlaqələrdə əsas konturları müəyyən edən məhz Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi olmuşdur. Bu Saziş əsasında Azərbaycan ilə Aİ arasında müxtəlif sahələrdə müxtəlif proqramlar çərçivəsində ilkin əməkdaşlıq təmasları qurulmuş və bu saziş tərəflərarası münasibətlərin növbəti mərhələləri üçün zəmin rolunu oynamışdır. İkinci fəslin **"Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının institusional mexanizmləri"** adlanan ikinci yarımfəsli Azərbaycan Respublikasının Aİ-nin mühüm proqramlarında iştirakının tədqiqinə həsr olunmuşdur. Xüsusilə

---

[50] Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). – Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. – 2011. – s.29-30

də Respublikamızın Aİ-nin TACİS proqramı[51] və onun ən mühüm çoxtərəfli şəbəkə layihələri TRACECA[52], TEMPUS[53] və İNOGATE [54] çərçivəsində əməkdaşlığı ətraflı şəkildə şərh edilmişdir. Aydın olur ki, TRACECA proqramı istər dövlətimizin iqtisadi potensialının artırılmasında, istərsə də tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsində müstəsna rol oynamışdır. TRACECA ilə yanaşı İNOGATE proqramı çərçivəsində layihələrin reallaşdırılması ölkəmiz üçün yeni perspektivlər açmış, karbohidrogen ehtiyatların daşınmasında beynəlxalq maliyyə institutları və xüsusi investisiya fondlarının sərmayələrinin Azərbaycana cəlb edilməsində əhəmiyyətli təsirə malik olmuşdur. Digər tərəfdən Aİ ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının iştirak etdiyi TEMPUS və Erasmus Mundus kimi layihələrin Avropa təhsil məkanına inteqrasiya üçün nə dərəcədə əhəmiyyətli olması tədqiqatın gedişində öyrənilmişdir.

İkinci fəslin üçüncü yarımfəsli **"Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında qarşılıqlı maraqlar"** adlanır. Bu yarımfəsildə ilk növbədə tərəflər arasında "Yeni Qonşuluq siyasəti"[55] və "Şərq Tərəfdaşlığı"[56] proqramına müvafiq olaraq münasibətlər qurulması və Brüsselin Cənubi Qafqazın lider dövləti kimi Azərbaycanla ikitərəfli əlaqələr yaradılmasına xüsusi diqqət yetirilmişdir. Məlum olduğu kimi qonşuluq

---

[51] The European Commission's Tacis Programme 1991 – 2006: [Electronic resource] / URL: https://www.osce.org/files/f/documents/2/1/34459.pdf.

[52] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində: / siyasi elmlər doktoru dis. / – Bakı, 2001. – s. 154.

[53] Trans-European mobility for university studies (TEMPUS): [Electronic resource] / URL: https://cordis.europa.eu/article/id/31-transeuropean-mobility -for-university-studies-tempus

[54] INOGATE & Azerbaijan: [Electronic resource] / URL: http://www.inogate.org/countries/2?lang=en

[55] Sadıqov, R.Ə. Avropa İttifaqının Şərq siyasətində yeni meyarlar – "Avropa Qonşuluq Siyasəti" və "Şərq tərəfdaşlığı" // Tarix və onun problemləri, – 2009. №4, – s. 263.

[56] Eyvazova, S.Ə. Avropa Qonşuluq Siyasəti – Azərbaycan Respublikası ilə əməkdaşlığın hüquqi əsasları / S.Ə.Eyvazova. – Bakı: Azərnəşr, – 2018. – s. 79-80.

siyasəti Aİ-nin Şərqə doğru genişlənməsinin nəticəsi kimi ortaya çıxmışdır. Genişlənmənin nəticəsi olaraq Aİ-nin şərq və cənub istiqamətlərində sərhədləri yenilənmiş, "Qonşu ölkələr" və "Aİ-nin xarici sərhədləri" anlayışları geosiyasi kontekstdə yeni məzmun çalarları qazanmışdır. "Köhnə qonşular"dan fərqli olaraq Aİ-nin "yeni qonşular"ının ittifaq ölkələri ilə bilavasitə sərhədləri yoxdur və ona üzv olmaq imkanından məhrum idilər. Bundan başqa, "yeni qonşular" dövlət olaraq çox fərqlidirlər və müxtəlif maraqlar güdürlər. Bu o deməkdir ki, Aİ birbaşa sərhəddi yaxınlığında olan ölkələrə (məsələn, Polşa və ya Rumıniyaya) münasibətdə siyasətini ondan coğrafi olaraq uzaq olan Gürcüstan və ya Azərbaycanla eyni məzmunda qura bilməzdi. 2020-ci ilin sentyabr-noyabr aylarında (44 gün) baş verən ciddi geosiyasi-hərbi proseslər bu münasibətlərdə tam bir dönüş nöqtəsi oldu. Azərbaycanın Aİ ilə əməkdaşlığında qarşılıqlı maraqların tədqiqi nəticəsində məlum olur ki, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin apardığı uzaqgörən siyasət dünyanın ən böyük siyasi-iqtisadi güc mərkəzlərindən olan Aİ ilə münasibətlərdə ölkəmizin maraqlarının maksimum şəkildə nəzərə alınmasına imkan verir. Bu da öz növbəsində tərəflər arasında qarşılıqlı maraqlar fonunda davam etdirilən münasibətlərin gələcəkdə də yüksələn xətt üzrə inkişafına heç bir şübhə doğurmur. Tədqiqat işində o da aydın olur ki, Zəngəzur dəhlizinin reallaşması Brüssel üçün müsbət istiqamətdə inkişaf edən ikitərəfli əməkdaşlıq yolunda ən ciddi sınaqlardan biri olacaqdır.[57]

Dissertasiya işinin **"Müasir beynəlxalq reallıqlar şəraitində Azərbaycan-Avropa İttifaqı münasibətləri"** adlanan üçüncü fəsli də üç yarımfəsildən ibarətdir. Bu fəslin ilk yarımfəsli **"Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında inteqrasiya problemi və ziddiyyətlər"** adlanır. Belə ki, Azərbaycan Respublikası Aİ ilə qarşılıqlı əlaqələrdə milli maraqlara dayanaraq tam şəkildə inteqrasiyanın mümkün ola

[57] Abasov, C. Prezidentin uğurlu Fransa səfəri: Azərbaycan-Avropa İttifaqı əlaqələri inkişaf edir // 525-ci qəzet. – 2018, 24 iyul. – s.4.

bilməyəcəyini, lakin ikitərəfli əsasda münasibətlərin inkişafına hər zaman hazır olduğunu dəfələrlə bəyan etmişdir. Bu yanaşmanın əsas səbəblərindən biri tərəflər arasında mövcud olan dəyərlər fərqi və bu fərqin Aİ tərəfindən normativ təzyiq vasitəsi kimi istifadəsi idi. Tədqiqatın gedişində Aİ-nin dəyərlərə əsaslanan siyasətinin Azərbaycan Respublikası tərəfindən qəbul edilməməsinin səbəbləri və bu amillərin qarşılıqlı münasibətlərin inkişaf dinamikasına təsiri təhlil edilir. Əsas məqam olaraq Aİ-nin normativ dəyərlər prinsipləri ilə Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasət kursu arasındakı formalaşan uyğunsuzluq önə çıxarılır. Qarşılıqlı münasibətlərimizə xələl gətirən digər bir amil Avropa Parlamentinin müxtəlif illərdə dövlətimizin əleyhinə qəbul etdiyi əsassız qətnamələr olmuşdur. Vaxtilə Avropanın enerji təhlükəsizliyini təmin edən əsas layihələrdən birinə - Cənub Qaz Dəhlizinə qarşı çıxan Avropa Parlamenti 44 günlük Vətən müharibəsi zamanı və sonrasında da anti-Azərbaycan mövqedən çıxış edərək, yenə Azərbaycanı əsassız yerə hədəf alan bəndlərin olduğu qərəzli qətnamələr qəbul etməkdən çəkinməmişdir. Digər bir tərəfdən Aİ-nin bəzi aparıcı dövlətləri, xüsusən Fransanın antiazərbaycan mövqeyi və Ermənistanla sərhədə göndərilən Aİ-nin müşahidə missiyasının fəaliyyəti münasibətlərimizə xələl gətirən amillər sırasındadır.

Üçüncü fəslin ikinci yarımfəsli **"II Qarabağ müharibəsi ərəfəsində və sonrasında Azərbaycan-Avropa İttifaqı münasibətləri"** adlanır. Bu yarımfəsildə 44 günlük Vətən müharibəsi ərəfəsində və gedişində Aİ-nin regionda cərəyan edən hadisələrə yanaşması təhlil edilir, xüsusilə tarixi zəfərdən sonra Aİ-nin Azərbaycanla münasibətlərində yeni mərhələnin formalaşmasına diqqət çəkilir. Belə ki, 2023-cü ildə Azərbaycanın həyata keçirdiyi lokal antitettor əməliyyatlarından sonra respublikamızın ölkə ərazisində suverenliyini tam bərpa etməsi və daha sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması istiqamətində Ermənistanla imzalanacaq sülh müqaviləsi danışıqlarının Azərbaycanın təqdim etdiyi şərtlər çərçivəsində davam etdirməsi Aİ-ni Cənubi Qafqaz siyasətinə

yenidən nəzər yetirməyə vadar etdi. Çünki Ukraynaya müdaxiləsindən sonra regionda mövqeyi zəifləyən Rusiyanın bu prosesdən uzaq düşməsi Aİ-nin maraqlarına tam cavab verirdi və bu fürsətdən yararlanaraq Aİ regionda formalaşan yeni geosiyasi müstəvidən kənarda qalmaq istəmirdi. Digər tərəfdən Rusiya-Ukrayna müharibəsinin hələ də davam etməsi nəticəsində Aİ tərəfindən Rusiyaya qarşı tətbiq edilən sanksiyalar, ABŞ-da Tramp Administrasiyasının hakimiyyətə gəlişindən sonra Avropa-ABŞ münasibətlərində yaranan gərginlik bu qurumun dövlətlərini enerji təchizatı və təhlükəsizliyi prizmasından Cənubi Qafqazı, xüsusilə alternativ enerji mənbəyi rolunu oynaya biləcək Azərbaycan Respublikasını Aİ üçün son dərəcə əhəmiyyətli və etibarlı tərəfdaşa çevirdi. Azərbaycanın Prezident İlham Əliyevin timsalında yalnız regionda deyil, bütün dünyada artan nüfuzu, xüsusilə ölkə başçısının 2024-2025-ci illərdə həyata keçirdiyi çoxvektorlu xarici siyasət fəaliyyəti dövlətimizin aktiv diplomatiya dövrü kimi xarakterizə edilir. Bu dövrdə Azərbaycan-Aİ əlaqələri də yeni mərhələyə keçid etmişdir.

Dissertasiya işinin üçüncü fəslinin son yarımfəsli **"Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişaf perspektivləri"** adlanır. Azərbaycan-Aİ münasibətlərinin perspektivlərini nəzərdən keçirərkən belə qənaətə gəlmək olar ki, Aİ ilə Azərbaycan Respublikası arasındakı münasibətlər getdikcə daha intensiv xarakter daşımağa başlamışdır. Xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsi həll edildikdən sonra bu beynəlxalq qurumun Azərbaycan Respublikasına münasibətində müsbətə doğru dəyişikliklər aydın sezilir. Aİ ilə münasibətlərin ikinşafının yeni perspektivləri müəyyən olunur. Cənubi Qafqazda yaranmış yeni geosiyasi vəziyyət, 44 günlük Vətən müharibəsindən sonra başlanan postmüharibə dövrü, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin aparılması, regional nəqliyyat layihələrinin həyata keçirilməsi məsələləri bu perspektivlərə daxildir. Digər tərəfdən də bu gün beynəlxalq aləmi, o cümlədən də Aİ-ni daha çox düşündürən Ukrayna məsələsini də nəzərə alarsaq gələcəkdə Azərbaycan ilə Aİarasında assosiativ üzvlük formatı əvəzinə, hər iki tərəf üçün faydalı olacaq strateji tərəfdaşlıq

dair yeni hərtərəfli sazişin imzalanması daha real görünür. Çünki bu gün Avropa üçün enerji təhlükəsizliyi çox mühüm faktordur. Bu faktorun da əsas təminatçılarından biri sözsüz ki, məhz Azərbaycan Respublikasıdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunan əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilir. Qeyd olunur ki, ilk növbədə Azərbaycan gənc müstəqil dövlət kimi Aİ ilə münasibətlərdə milli maraqları rəhbər tutaraq xarici siyasət kursu aparan ölkə qismində siyasi baxımdan önəmli təcrübəyə malikdir və bu təcrübə hal-hazırda regionun digər dövlətləri tərəfindən də öyrənilir. Eyni zamanda Azərbaycan Aİ daxilindəki ziddiyyətlərdən məharətlə faydalanaraq ondan öz maraqları üçün istifadə etməyə nail olmuşdur. Həmçinin Azərbaycan Aİ-yə inteqrasiyanın dəyərlər uyğunsuzluğu səbəbindən mümkün olmayacağını bəyan edərək prosesin xarakterində dəyişiklik etmiş ilk və yeganə post-sovet ölkəsidir. Nəhayət daha bir məqam ondan ibarətdir ki, Azərbaycan Aİ-nin aparıcı üzv dövlətlərinə qarşı beynəlxalq müstəvidə anti-kolonialist siyasət aparan və bu konteksdə uğurlar qazanan, lakin bu xarici siyasi xəttin Aİ ilə münasibətlərə mənfi təsir etməməsinə nail olan unikal xarici siyasət təcrübəsinə malikdir. Azərbaycan Aİ-nin daxilindəki ziddiyyətlərdən çox məharətlə faydalanan demək olar ki, tək ölkədir. Belə ki, Azərbaycan Aİ-nin daxilindəki şərq və qərb hissələri kimi köhnə-yeni Avropa adlanan hissədə inteqrasiyanın gələcəyinə münasibətdə olan strateji baxış fərqlərindən yararlanaraq Şərqi Avropanın Aİ-nin üzvü olan ölkələri ilə elə bir səviyyədə münasibət yaratmışdır ki, bu konteksdə Aİ-nin Azərbaycana qarşı olan mənfi davranış və hərəkətlərini bloklaya bilmişdir. Bu bloklama siyasəti Şərqi Avropa ölkələri ilə respublikamız arasında qurulan sıx münasibətlər nəticəsində mümkün olmuşdur. Dövlətimiz Aİ-yə bir qurum kimi deyil, onun daxilində fərqli baxışların mövcud olduğu müxtəlifliklərin birləşməsi kimi baxa bilmişdir və bu fərqlərdən Azərbaycanın dövlət maraqları naminə məharətlə istifadə etməyi bacarmışdır. Azərbaycan üçün Aİ müasir dünyanın iştirakçıları ilə əlaqə baxımından mühüm rol oynayır, Aİ üçün isə Azərbaycan Cənubi Qafqaz regionunda möhkəm sabitliyin və təhlükəsizliyin əsas qarantı kimi çıxış edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycan-Avropa İttifaqı münasibətlərini şərtləndirən amillər // Azərbaycanşünaslığın aktual problemləri, Ümummilli Lider H.Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 1 – 4 may – 2013, – s. 193-195.
2. Azərbaycan-Avropa İttifaqı münasibətləri TRASEKA proqramı çərçivəsində // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2018. №1, – s. 200-203.
3. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının əsas istiqamətləri: Şərq Tərəfdaşlığı // Azərbaycanşünaslığın aktual problemləri, Ümummilli Lider H.Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX Beynəlxalq elmi konfransının materialları, – Bakı: – 3 – 4 may – 2018, – s. 156-158.
4. Azərbaycan-Avropa İttifaqı münasibətləri İNOGATE proqramı çərçivəsində // Gənc tədqiqatçıların II Respublika elmi konfransının materialları, – Bakı: – 15 mart – 2019, – s. 105-106.
5. Avropa İttifaqının institusional quruculuq alətlərinin Azərbaycanda tətbiqi // Ümummilli lider H.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "İnsan inkişafı. Dünyaya inteqrasiya" mövzusunda II Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 27 – 28 aprel – 2019, – s. 17-20.
6. Azərbaycan-Avropa İttifaqı münasibətlərinin siyasi-hüquqi aspektləri // Al-Farabi, V Beynəlxalq sosial elmlər konfransı, – Bakı: – 1 – 4 avqust – 2019, – s. 210-213.
7. Azərbaycan-Avropa İttifaqı münasibətləri Avropa qonşuluq siyasəti çərçivəsində // – Bakı: Bakı Universitetinin xəbərləri. Humanitar elmləri seriyası, – 2020. №2, – s. 24-29.
8. 44 günlük Vətən Müharibəsi ərzində və sonrasında Azərbaycan-Avropa İttifaqı münasibətləri // – Türkiye:

Akademik Tarih ve Düşünce Dergisi, – c. 9. – 2020. Sayı 2, – s. 536-560.
9. Avropa İttifaqının postsovet ölkələri ilə münasibətlərində əməkdaşlığın yeni formaları // – Bakı: Sivilizasiya. Elmi-nəzəri jurnal, – c. 11. – 2022. №1, – s. 103-111.
10. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında qarşılıqlı maraqlar // 7.Uluslararası 19 Mayıs Yenilikçi Bilimsel Yaklaşımlar Kongresi, – Samsun: – 19 – 20 may – 2022, – s. 511-520.
11. Azərbaycanın xarici siyasətinin elmi-konseptual əsasları, əsas prinsipləri və prioritetləri // – Bakı: Şərq Araşdırmaları. Elmi-nəzəri jurnalı, – 2022. №1 (5), – s. 162-169.
12. Azərbaycanın Avropa İttifaqının TEMPUS və Erasmus Mundus proqramlarında iştirakı // – Bakı: Gənc Tədqiqatçı. Elmi-praktiki jurnal, – 2022. №1, – s. 237-242.
13. Azərbaycanın Avropa İttifaqına inteqrasiya problemi // 10.Ege Sosyal Bilimler Kongresi, – İzmir: – c. 1. – 22 – 24 dekabr – 2023, – s. 528-531.
14. Azerbaijan-European Union relations after the historical victory // Україна: Південноукраїнський національний педагогічний університет імені К. Д. Ушинського, Політичні Проблеми Міжнародних Систем Та Глобального Розвитку, – 2024, №1, – p. 119-123.
15. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində Avropa İttifaqi dövlətlərinin rolu // AZERBAIJAN 2TH INTERNATIONAL CONGRESS OF SCIENTIFIC RESEARCH (Strengthening International Relations for Sustainable Development in Azerbaijan), – Lerik: – 15 – 17 avqust – 2024, – s. 198-201.
16. Müstəqilliyin ilk illərində Azərbaycan-Avropa İttifaqı münasibətlərinin spesefik xüsusiyyətləri // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının müəllifi kimi” mövzusunda doktorantların və gənc tədqiqatçıların

17. Value divergences and their impact on Azerbaijan-European Union relations // III. International Artuklu Congress on Economic, Administrative, and Political Sciences, Mardin: Artuklu University, 27 – 29 november – 2025, – p.36-45.
18. Development trends of relations of Azerbaijan-European Union // Latvia: – Baltic Journal of Legal and Social Sciences, – 30 december – 2025. No 4, – p.216-221.



Dissertasiyanın müdafiəsi 21 may 2026-cı il tarixində saat 11⁰⁰da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2026
Kağızın formatı: A5
Həcm: 44625
Tiraj: 100